**«YARAT!» Müasir İncəsənət Məkanı «Ön söz» sərgisini təqdim edib**

Bakıda Aida Mahmudovanın rəhbərlik etdiyi «YARAT!» Müasir İncəsənət Məkanı qeyri-hökumət təşkilatının təqdimat mərasimi keçirilib. Tədbir iştirakçıları yeni təşkilatın ilk layihəsi olan «Ön söz» sərgisi ilə də tanış olublar. Yerli rəssamların əsərlərinin nümayiş olunduğu sərgidə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban Əliyeva, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, professor Nərgiz Paşayeva, tanınmış mədəniyyət və incəsənət xadimləri, ziyalılar, diplomatik nümayəndəliklərin əməkdaşları və mətbuat nümayəndələri iştirak ediblər.

M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru Nərgiz Paşayeva «YARAT!» Müasir İncəsənət Məkanının fəaliyyət göstərdiyi müddətdə bir çox mühüm layihələrə imza atdığını, təşkilatın Azərbaycan məkanında, o cümlədən paytaxtımızda müasir incəsənət haqqında lazımi dərəcədə təsəvvür yaratdığını bildirmişdir. N.Paşayeva qeyd etmişdir ki, müasir incəsənət Avropa ölkələrində özünə geniş yer tutmuşdur. Həmçinin, MDB məkanında son 15 ildə müasir incəsənət əsərlərinin geniş əks etdirilməsinə başlanılmışdır: «Azərbaycanda da bu sənətin təqdimatı ilə məşğul olanlar üçün geniş imkanlar yaradılmışdır. «YARAT!» qeyri-kommersiya təşkilatı yaradıcı gənclərin bir araya gətirilməsi və onların yaratdıqları sənət əsərlərinin ölkədə və dünyada təbliği istiqamətində mühüm işlər görməkdədir. Təşkilata rəhbərlik edən Aida Mahmudova rəssamlıq üzrə mükəmməl təhsil aldığına görə bu sahədə heç də təsadüfi adam deyildir. Belə bir sahənin peşəkarların əlində olması yaxşı haldır. İşini sevən bir rəssam kimi Aida Mahmudovanın rəhbərliyi altında qurumun bir-birindən maraqlı layihələri son illər təkcə Azərbaycanda deyil, ölkəmizdən kənarda da maraqla qarşılanmaqdadır».

«YARAT!» Müasir İncəsənət Məkanının rəhbəri Aida Mahmudova sərgi iştirakçılarına minnətdarlığını bildirmiş və qeyd etmişdir ki, bu layihədə iştirak çox maraqlıdır. Sərgidən sonra insanlarda incəsənətin bu növünə maraq artacaq. A.Mahmudova bildirmişdir ki, «YARAT!» Müasir İncəsənət Məkanı müstəqil qeyri-hökumət təşkilatıdır. Onun əsas məqsədi Azərbaycanda müasir incəsənətin inkişafına yardım etmək, ölkədə və xaricdə sərgilər, festivallar, seminarlar, ustad dərsləri və respublika rəssamlarının təbliğinə yönəlmiş müxtəlif tədris-maarifləndirici tədbirlər keçirməkdir.